

# Tanınmış ədəbiyyat və ictimai xadim cənab Xeyrəddin Qocaya

Hörmətli Xeyrəddin müəllim!

Sizi 75 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Siz çağdaş milli ədəbiyyatımızda özünəməxsus ədəbi yol yaradan, oxucular arasında dərin ehtiram və məhəbbət qazanmış ədəbiyyat xadimisiniz. Vətənə, xalqa sədaqət, milli-mənəvi dəyərlərə ehtiram, mənəvi saflığa çağırış, ideal insanlıq və vətəndaşlıq hisslərinin təcəssümü ədəbi təfəkkürünüzün əsas qayəsini təşkil edir. Bu ülvi hissləri ifadə edən, nəcib duyğular üzərində köklənən, kövrək qəlbin və parlaq zəkanın qüdrəti ilə ərsəyə gələn hər bir əsəriniz sənətsevərlər tərəfindən daim rəğbətlə qarşılanmışdır.

Yazıçı, dramaturq, publisist, tənqidçi, ictimai xadim kimi keçdiyiniz ömür yolunuz, mübarizə və uğurlarınız, bir sıra mühüm dövlət vəzifələrində yüksək səriştə və məsuliyyətlə çalışmağınız, milli maraq və mənafeyə xidmət edən əzmkar fəaliyyətiniz əsl vətəndaşlıq nümunəsidir.

Çoxillik səmərəli fəaliyyətiniz dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" və "Şöhrət" ordenləri ilə təltif olunmağınız, Prezidentin fərdi təqaüdünə layiq görülməyiniz bu diqqət və qayğının bariz nümunəsidir.

Hörmətli Xeyrəddin müəllim,

Bir daha doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, möhkəm cansağlığı və yaradıcılığınızda yeni-yeni nailiyyətlər arzulayırıq.

Hörmətlə,

**Mədəniyyət Nazirliyinin kollektivi**

**Bakı şəhəri, 29 yanvar 2025-ci il**